# Kənd sakinlərinə göstərilən dövlət qayğısı daha da artırılır

## Kiçik Pirəli kəndində görüş-qəbul keçirilib

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin əhali ilə növbəti görüş-qəbulu Kiçik Pirəli kəndində olub. İnamla demək olar ki, yerlərdəki problemlərin öyrənilməsi və həll olunmasında rəhbər işçilərin vaxtaşırı olaraq yaşayış məntəqələrində keçirdiyi səyyar görüş-qəbulların böyük rolu vardır.***



Görüş-qəbulda Azərbaycan Respublikası Prezidenti Administrasiyası Ərazi-təşkilat şöbəsinin sektor müdiri Rüfət Əliyev, rayonun hüquq mühafizə orqanlarının, təhsil, səhiyyə və digər xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak edib.

RİH başçısı Səbuhi Abdullayev Respublika Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələr barədə görüş iştirakçılarına məlumat verib, səyyar-görüş qəbulların yerlərdəki problemləri öyrənmək və həll etmək üçün səmərəli vasitə olduğunu bildirib.

Qeyd olunub ki, Prezidenti İlham Əliyevin kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərdiyi diqqət və qayğı sayəsində əhalisi əsasən meyvəçilik, heyvandarlıq və əkinçiliklə məşğul olan Kiçik Pirəli kəndində də aqrar sahəyə maraq artıb. Son illər ərazidə ixracyönümlü kənd təsərrüfatı məhsul olan fındıq bağlarının sahəsi xeyli genişləndirilib, əlavə yeni fındıq bağları salınıb.



Sosial sahədə də yğyrlu inkişaf yolu keçən Kiçik Pirəlidə yeni və müasir məktəb binası tikilib istifadəyə verilib, ərazi başdan-başa qazlaşdırılıb. Yaşayış məntəqəsi fasiləsiz təbii qaz, elektrik enerjisi, rabitə və içməli su ilə təmin olunur. Görülmüş işlər əhalinin rifah halının yüksəlməsinə, yaşayış tərzinin rahatlığına imkan yaradıb.

Sonra kənd sakinləri dinlənilib. Kənd sakinlərindən Cahangir Əzəmmədov, Çingiz Tapdıqov, İnqilab Məmmədov və başqaları çıxış edərək respublikanın bütün bölgələrində olduğu kimi Qəbələdə və Kiçik Pirəli kəndində hayata keçirilən abadlıq-quruculuq işlərinə, əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində icra olunan nəhəng sosial proqramlara görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar eyni zamanda əvvəlki görüş-qəbullarda qaldırdıqları məsələlərin həllinə görə razılıqlarını ifadə ediblər.

Çıxış edənlər kənddəki işıq xətlərinin yenilənməsinə, kənd yolunun asfaltlaşmasına, ərazidə əlavə artezian quyusunun qazılmasına ehtiyac olduğunu bildiriblər.

Görüş-qəbulda qaldırılan məsələlərin həlli üçün tədbirlər müəyyənləşdirilib.

Prezidenti Administrasiyasının Ərazi-təşkilat şöbəsinin sektor müdiri Rüfət Əliyev görüş-qəbulda çıxış edib. O, irəli sürülən təkliflərlə bağlı respublikada həyata keçirilən layihələr və onların mərhələli həlli istiqamətində görülən işlər barədə məlumat verib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto)**

## Mədəni irsin qorunması və öyrənilməsi vacib məsələdir

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin təşəbbüsü, Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Qəbələ Dövlət Tarix Bədii Qoruğunun ərazisində "Avropa İrs Günləri"nə həsr olunmuş tədbir keçirilmişdir.



Tədbiri giriş sözü ilə qoruğun direktoru Bəhruz Şərifov açmış, tədbirin keçirilməsinin məqsədi barədə məlumat vermişdir.

Tədbirdə iştirak edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək bildirmişdir ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra mədəni irsin qorunmasına xüsusi diqqət yetirilir. Ulu öndər Heydər Əliyevin tarix və mədəniyyət abidələrinin qorunmasına, bərpasına və təbliğinə böyük önəm verdiyini qeyd edən natiq Prezident İlham Əliyevin də ulu öndərin bu sahədə başlatdığı işi uğurla davam etdirdiyini vurğulayıb.

Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova çıxışında tarixi və mədəni irsimizi məktəblilərə daha dərindən öyrətməyin vacibliyindən, bu işdə təhsil ocaqlarında görülən tədbirlərdən danışmışdır.

Tədbir bədii proqramla davam etdirilmişdir.

Rayon mədəniyyət və uşaq gənclər inkişaf mərkəzləri kollektivlərinin, Mirzəbəyli kənd və şəhər 1 nömrəli uşaq bağçaları körpələrinin çıxışları alqışlarla qarşılanmışdır.

Tədbirdə rayon dövlət rəsm qalereyasının fonduna məxsus rəsm əsərləri, yerli sənətkarların əl işləri və yeni kitablardan ibarət sərgi nümayiş etdirilmişdir.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

## Əhalinin siyahıyaalınmasına dair seminar-müşavirə

***Azərbaycan Respublikası Prezidentinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən, 2019-cu il oktyabrın 1-dən 10-dək respublikamızda əhalinin növbəti dəfə siyahıyaalınması keçiriləcək. Ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyan bu mühüm dövlət tədbirinin yüksək səviyyədə keçirilməsi üçün Qəbələ rayonunda da ciddi hazırlıq işləri görülür. Əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi, onun optimal qaydada keçirilməsi, və yekunlarının işlənməsi məqsədilə bu günlərdə şəhər 5 nömrəli məktəbdə seminar-müşavirə keçirilib.***

Seminar-müşavirəni açan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev tədbir iştirakçılarına əhalinin siyahıyaalınmasının mahiyyəti barədə məlumat verib, ölkənin bütün vətəndaşlarına aid demoqrafik, iqtisadi və sosial məlumatların müəyyən olunmuş vaxtında toplanılması, ümumiləşdirilməsi, öyrənilməsi və yayılması baxımından müstəsna əhəmiyyətə malik olduğunu, həmçinin siyahıyaalınmanın əhalinin sayı, yerləşməsi, tərkibi və müəyyən bir dövr üzrə vacib olan xüsusiyyətləri barədə ətraflı məlumatların hazırlanmasını şərtləndirdiyini diqqətə çatdırıb.



RİH başçısının müavini bu mühüm dövlət tədbirinin yüksək səviyyədə keçirilməsini təmin etmək üçün rayonda 8 siyahıyaalma, 70 təlimatçı-nəzarətçi və 351 sayıcı məntəqəsinin yaradıldığını bildirib.



Rayon statistika idarəsinin rəisi Ayaz İsgəndərov çıxışında müstəqil Azərbaycan Respublikasında əhalinin ilk siyahıyaalınmasının 1999-cu ildə keçirildiyini qeyd edərək müasir dövrdə əhalinin siyahıyaalınmasının aktuallığını qabaqcıl monitorinq tədqiqatı kimi səciyyələndirib. O, əhalinin artımı barədə məlumatların ölkədə sosial-iqtisadi proseslərin idarə edilməsində, sosial-iqtisadi proqramların işlənməsində və reallaşdırılmasında mühüm məlumat mənbəyi olduğunu vurğulayıb. Siyahıyaalma ilə məşğul olacaq məsul şəxslərin üzərinə düşən vəzifələri izah edib.

Ayaz İsgəndərov əhalinin siyahıyaalınması istiqamətində keçiriləcək təlimati seminar-müşavirələrin sentyabrın sonuna qədər davam edəcəyini qeyd edib.

Seminarlar-müşavirədə iştirakçılarının siyahıyaalma ilə əlaqədar bütün sualları cavablandırılmışdır.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**